**Kazus**

Qeyrətxan (ərizəçi) hazırda Astoriya Respublikasının Romantika şəhərində həbsdədir (cəzaçəkmə müəssisəndə).

**29.06.2004**-cü ildə Çiçək xanımın şikayət ərizəsi əsasında Qeyrətxan aeroportda tutularaq polisə aparılmış və orada ona vəkil təyin edilmişdir. Polis məntəqəsində ona bədənə xəsarət yetirmə, adam oğurluğu və zorlama cinayətləri üzrə təqsirləndirildiyi bildirilmişdir. Ertəsi gün o Romantika şəhər məhkəməsi qarşısına vəkili ilə birgə çıxarılmış və qeyd edilən cinayətlərlə əlaqədar həbs qəti imkan tədbiri seçilmişdir.

**22.07.2004**-cü ildə Çiçək xanım ifadə vermək üçün məhkəmə qarşısına çıxarılmışdır. Hökumət Məhkəmədə Çiçək xanımın ifadə verməsində iştirak edərək suallar verməsi üçün ərizəçinin vəkilinə bildiriş göndərildiyini bildirsə də bildirişin vəkilin almasını sübut edən qəbzi təqdim etməmişdir. Vəkil heç bir üzürlü səbəb göstərmədən Çiçək xanımın dindirilməsində iştirak etməmişdir. Çiçək xanım bütün hadisəni təfərrüatları ilə məhkəməyə danışmışdır. Qeyrətxan vəkilinin qeyd edilən dindirmədə iştirak etməməsi səbəbilə məsuliyyət cəlb edilməsini tələb etməsə də 16.09.2004-cü ildə vəkilini dəyişərək hüquqlarının müdafiəsi üçün başqa vəkil tutmuşdur.

Cənab Alfonsun işlədiyi qəzetdə hadisə ilə bağlı bir neçə geniş məqalə çap edilmiş və Çiçək xanıma və cənab Alfonsa qarşı cinayət törətmiş şəxsin saxta sənədlərlə ölkədən qaçmaq istəyərkən tutulduğu və qanuni cəzasının verilməsi üçün məhkəmənin yekun qərarının elan edilməsini gözlədiyi bildirilirdi. Hadisə ilə bağlı istintaq orqanının rəhbəri qəzetə müsahibə vermişdir.

**19 aprel 2006**-ci ildə birinci instansiya məhkəməsində Çiçək xanım məhkməyə ifadə vermək üçün dəvət edilmişdir. Lakin keçirdiyi güclü ruhi həyəcan səbəbilə dindirilməsi mümkün olmamışdır. Beləliklə onun ittiham və müdafiə tərəfindən çarpaz dindirilməsini həyata keçirmək mümkün olmamışdır. Məhkəmə təxirə salınmış, növbəti iclasda da Çiçək xanım həddən artıq həyəcanlanmış və ifadə verə bilməmişdir. Məhkəmə Çiçək xanıma tibbi dəstək vermək üçün həkim dəvət etməsə də daha sonra naməlum tarixdə əldə edilən ekspert rəylərindən məlum olur ki, Çiçək xanımın vəziyyətini travmadan sonraki streslə (post-traumatic stress disorder) əlaqəli olmuşdur və belə vəziyyətdə onun ifadə verməsimümkün deyildir.

Məhkəmə istintaq zamanı Çiçək xanımın verdiyi ifadənin məhkəmədə oxunması və beləliklə Çiçək xanımın dindirilməməsi barədə ittiham tərəfinin təklifini qəbul etdi. Ərizəçi tərəf də hadisənin necə baş verməsi ilə bağlı öz mövqeyini bildirdi.

**05.05.2006**-cı ildə elan edilən hökmdə deyilir:

Müdafiə tərəfi məhkəmə istintaqı zamanı şahid ifadələrinin yalan olduğunu və bədənə vurulan xəsarətlərlə əlaqədar tibbi ekspert rəyinin hadisədən 15 gün sonra verilməsinin həmin xəsarətlərin hadisə ilə əlaqəli olmadığını sübut etdiyini bildirsə də öz mövqeyini sübut edəcək dəlilləri məhkəməyə təqdim etməmişdir. Bundan əlavə müdafiə tərəfi zərərçəkən tərəfi çarpaz dindirmək imkanının olmaması səbəbilə Konvensiyanın 6-cı maddəsinin 3-cü bəndinin d yarımbəndinin pozulduğunu iddia etmişdir.

Qeyrətxan və Çiçək xanım əvvəl faktiki nikah münasibətlərində olmuşlar və bu münasibətdən Mazelli adlı oğlanları olmuşdur. 04.04.2004-cü ildə Qeyrətxan Çiçək xanımın evinə getmiş və Mazellini ona göstərməməsi səbəbilə Çiçək xanımı ölümlə hədələmişdir. Evdən

çıxarkən Çiçək xanımın oğlan dostu cənab Alfonsun avtomobilini yumruqlayaraq avtomobilə xəsarət yetirmişdir. Daha sonra yerdən daş götürərək Çiçək xanımın evinin pəncərəsini sındırmışdır. Cənab Alfons Qeyrətxana mane olmaq istəyərkən bir-ikisini də ona ilişdirmiş və onları aralamağa çalışarkən bir yumruq da Çiçək xanıma dəymişdir. Daha sonra Qeyrətxan yenidən evə girmiş və Çiçək xanımın iradəsinin əleyhinə 3 saat orada qalmış və Mazellini görmək üçün gətirməyəcəkləri təqdirdə evdən getməyəcəyini demişdir. Daha sonra Qeyrətxan Çiçək xanımı zorla avtomobilə mindirmiş və cənab Alfonsa demişdir ki, Mazellini o dediyi ünvana gətirməyincə Çiçək xanımı buraxmayacaq. Daha sonra Qeyrətxan Çiçək xanımın gözünü, qollarını, ayaqlarını və ağzını bağlayaraq naməlum yerə aparmış, orada üstünə buz kimi soyuq su tökmüş və iki nəfər başqa dostu ilə (şəxsiyyətlərini müəyyən etmək mümkün olmamışdır) qeyri-təbii və təbii yolla zorlamışlar. Daha sonra cənab Alfonsa zəng vuraraq Mazellini gətirməsi üçün ünvanı bildirmişdir. Cənab Alfons uşağı gətirdikdən sonra bir saat onlar bir yerdə olmuş və daha sonra Qeyrətxan onlara getməyə icazə vermişdir və onları şikayət edəcəkləri təqdirdə ölümlə hədələmişdir. Daha sonra Qeyrətxan aeroportda tutularkən saxta sənədlərlə ölkəni tərk etmək istədiyi məlum olmuşdur.

Qeyrətxana aşağıdakı cinayətlərinə görə cəza verilmişdir:

1. Hədə-qorxu gəlmə - 15 ay azadlıqdan məhrumetmə;
2. Evin qapısını sındırmaqla və güc istifadə etməklə evə daxil olmaq – iki il azadlıqdan məhrumetmə;
3. Çiçək xanımının bədəninə yüngül xəsarət yetirmə - 12 saat azadlıqdan məhrumetmə;
4. Cənab Alfonsun bədəninə xəsarət yetrimə - 12 gün azadlıqdan məhrumetmə;
5. Çiçək xanımın oğurlanması üçün – 8 il azadlıqdan məhrumetmə;
6. Cənab Alfonsu oğurlaması üçün – 3 il azadlıqdan məhrumetmə;
7. Çiçək xanıma mənəvi iztirablar verdiyi üçün – 2 il azadlıqdan məhrumetmə;
8. Çiçək xanımın ağırlaşdırıcı hallarla zorlaması üçün -15 il azadlıqdan məhrum etmə;
9. Sənədləri saxtalaşdırmaq üçün – 8 ay azadlıqdan məhrum etmə.

Məhkəmə Çiçək xanımın və cənab Alfonsun ifadələri və hadisənin baş verməsindən 15 gün sonra alınan məhkəmə tibb ekspertinin rəyinin əsasında hökm vermişdir.

*Hazırladı: Nihad Əliyev*